NORM

**Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi üzrə Şirkət Siyasəti**

Norm MMC rəhbərliyi və şirkətin adından fəaliyyət göstərən bütün işçilər sementin mövcud tələblərə uyğun istehsalını təmin etməklə yanaşı ətraf mühitə və yaxınlıqdakı yaşayış məntəqələrinə təsirin minimuma endirilməsinə, habelə sənayedə ən mütərəqqi təcrübənin tətbiqinə görə cavabdehdirlər.

Biz sement satmaqla kifayətlənməyib məhsullarımızın istifadəsində öz müştərilərimizə dəstək göstərəcək və müvafiq treninqlər təşkil edəcəyik.
Biz əlaqədar tərəflərin fikirlərinə dəyər verəcək və onların təkliflərindən davamlı inkişaf məqsədilə istifadə edəcəyik.

Biz Sağlamlıq və Təhlükəsizlik, keyfiyyət və ətraf mühitin idarə olunması ilə bağlı bütün proseslər üçün meyarlar təyin edir, proseslərin davamlı surətdə təkmilləşdirilməsi və tənzimlənməsi üçün müvafiq parametlərin monitorinqi və təhlilini həyata keçiririk.

Rəhbərlik bu strategiyanı müntəzəm surətdə nəzərdən keçirəcək və lazım gələrsə müvafiq düzəlişlər edəcəkdir.

Rəhbərlik siyasətimizin bütün işçilərə çatdırılmasını və başa düşülməsini, habelə treninqlər vasitəsilə tətbiqini təmin edəcəkdir.

Sağlamlıq və Təhlükəsizlik

Təşfiq və təlimlər vasitəsilə sağlamlıq və təhlükəsizlik proqramının davamlı surətdə təkmilləşdirilməsi və tətbiqi.

Sağlamlıq və təhlükəsizlik proqramının səmərəli surətdə həyata keçirilməsi üçün bütün səviyyələrdə məsuliyyət və cavabdehliklərin müəyyən edilməsi və müvafiq idarəetmə və əlaqələndirmənin təmin edilməsi.

Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi ilə bağlı qanunların bütün müddəalarına riayət edilməsi.

Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsinə bütün işçilərin töhvə verməsinin təşviq edilməsi.

Hər bir işçinin öz vəzifələrini effektli və təhlükəsiz yerinə yetirməsi üçün müvafiq məlumatlandırma, təlimatlandırma, treninq və nəzarətin təmin edilməsi.

Sağlamlıq, Təhülkəsizlik və Ətraf Mühitin Mühafizəsi ilə bağlı tələblərin bütün işçilər, podratçılar və qonaqlar tərəfindən tam başa düşülməsinin, tələblər yerinə yetirilmədiyi təqdirdə müvafiq tədbirlərin həyata keçirilməsinin təmin edilməsi.

İşçilərə verilən hər bir tapşırığın onların imkanı daxilində olmasının və təhlükəyə səbəb olacağı əsaslandırılmış surətdə ehtimal edilən tapşırıqların verilməməsinin təmin edilməsi.

Fövqəladə hallar üçün prosedurların işlənib hazırlanması və fövqəladə hallarda avadanlıq və qurğuların işçilərə zərər yetirməməsinin təmin edilməsi.

Risklərin idarə olunması, bərpa proqramları və işçilərə tibbi xidmətlərin göstərilməsinin təmin edilməsi.

İş vaxtı və işdən sonra işçilərin sağlamlıq və təhlükəsizlik qaydalarına riayət etmələri üçün həvəsləndirilməsi və dəstəklənməsi.

Şirkətin qonaqları və podratçılarının sağlamlıq və təhlükəsizliyinin qoruyub-saxlamaq üçün müvafiq sistemlər və prosedurların tətbiqi, qonaqların və podratçıların fəaliyyəti nəticəsində arzuedilməz hadisələrin baş verməməsinin təmin edilməsi.

Təsdiqlənmiş təhlükəsizlik avadanlıqlarının və fərdi mühafizə vasitələrinin lazım gəldikdə təmin edilməsi.

Keyfiyyət

Şirkət rəhbərliyi və işçiləri sementin stabil və effektli surətdə istehsal edilməsinə cavabdehdirlər. Biz məhsullarımızın istehsalı və çatdırılması ilə bağlı tələblərə ciddi surətdə riayət olunmasını təmin edəcəyik.

Biz texnoloji prosesin və məhsullarımızın yerli və beynəlxalq standartlara uyğunluğunu təmin edəcəyik.

Biz texnoloji prosesin və keyfiyyətin yaxşılaşdırılması üçün mütəmadi surətdə qarşımıza yeni məqsəd və hədəflər qoyacaq, onların müntəzəm monitorinqini həyata keçirəcəyik.

Biz subpodratçılarımızı tələblərə uyğun seçəcək, işləri yüksək səviyyədə yerinə yetirmələri üçün onların fəaliyyətinə nəzarət edəcək və dəstək verəcəyik.

Ətraf Mühit

Biz fəaliyyətimizin ətraf mühitin mühafizəsi ilə bağlı müvafiq qanunvericiliyə uyğun həyata keçirilməsini və bu sahədə davamlı inkişafı təmin edəcəyik.

Biz təbii ehtiyatlardan səmərəli istifadə edəcək, tullantıların həcmini maksumum həddədək azaldacaq, enerjiyə qənaət edəcək, atmosferə atılan zərərli maddələrin miqdarını minimuma endirəcək və ətraf mühitin mühafizəsinə ciddi yanaşan qurumlarla iş birliyi qurmağa can atacağıq.

Biz ətraf mühitin mühafizəsilə bağlı mütəmadi surətdə qarşımıza yeni məqsəd və hədəflər qoyacaq, onların müntəzəm monitorinqini həyata keçirəcək, mütərəqqi prosesləri tədqiq və tətbiq edəcəyik.

Biz ictimaiyyətlə mütəmadi əlaqə saxlayacaq, zavodun ətraf mühitə təsiri barədə şəffaf hesabatlar verilməsini təmin edəcəyik.

**Baş İcraçı Direktor** **Hasan Yalçınkaya**

**Davamlı İnkişaf üzrə Müdir** **Nəriman Mantaşev**